

## Vasili Kazantsev

* * *

Bir çölün düzündə ley kimi çalıb
Üzür, ayağımı torpaqdan üzür;
Taqhataq, qurhaqur, hay-haray salıb,
Bu qatar zülmətin qoynuna süzür.

Bayaqdan bayıra baxıram mən də;
Qatar nə dayanır, nə də tövşüyür...
Təzəcə don vuran çöldə, çəməndə-
Görürəm, yol boyu otlar üşüyür.

Qəm-qüssə qəlbimi yandırıb-yaxır,
Eh, daha əllərin hayana çatar?!
... Bu qatar uzaqda nə görüb, axı?-
Hayana şütüyür görən, bu qatar?!

* * *

Utanmasam, gizləməzdim hissimi:
Ağlayanda, hönkür- hönkür ağlayar,
Güləndəsə, vallah, elə gülərdim-
Heyrətindən dostlar ayaq saxlayar,
Düşmənlərsə həsədindən ölərdi.

Eh, di gəl ki, sevinəndə - duruxur.
Qəmlənəndə- yerimdəcə donuram.
Mən elə hey öz içimdə vurnuxur,-
Mən elə hey öz içimdə yanıram.

* * *

Düşünüb- daşındım, hirsləndim hərdən,
Gözlədim, yollara hey baxa-baxa.
Eh, axır- axırda anladım ki, mən-
Ömrün xoş günləri qayıtmaz daha
Sıraya düzülüb öz qaydasında -
İllər yavaş-yavaş gəlib gedəcək;
Xoş günlər qayıtmaz ha haylasam da,
Sinəmi həmişə bu qəm didəcək.

Xoş günlər qayıtmaz... Daha neyləyim?
Yaşayım beləcə qəm çəkə- çəkə.
Özünü sındırmır, amma ürəyim;
Ömrün xoş günləri qayıtdı, bəlkə?!

* * *

Sən ey gecə- gündüz axtardığım söz!
Bəlkə, kol üstündə hələ qönçəsən.
Bəlkə, yarpaq- yarpaq parlayan gündüz,
Bəlkə də ulduzlu, Aylı gecəsən?

Səni gəzə-gəzə düşürəm heydən;
Beləcə keçibdi ötən vaxtlarım.
Hardasan, hardasan? - Yerdə, ya göydə?
Hardasan? Mən səni harda axtarım?!

Başımın üstünü qəfil aldadır,
Qəfildən önümdə gəlib durursan.
...Nə məni biryolluq göyə qaldırır,
Nə də ki, biryolluq yerə vurursan.

* * *

Qapılıb qalma ha, bir dar otağa! -
Axı, beləliklə iş asan deyil.
Məhəmməd, sən özün yanaş o dağa,
Onsuz da dağ sənə yanaşan deyil.

Ağıl kəsə-kəsə, göz baxa- baxa,
Hər şey bircə anda baş- ayaq oldu;
Məhəmməd məhəl də qoymadı dağa, -
Güzəştə gedənsə yenə dağ oldu.

* * *

Yenə qalın meşəni
Salıb əldən- ayaqdan,
Dolambac, dar cığırla
Yeriyirəm bayaqdan.

Heç qırılmır bu cığır;
Şütüyür sinə-sinə.
Qabağına çay çıxır -
Adlayıb keçir yenə.

Məhəl qoymur kol-kosa;
Hər yerə düşür yönü...
Elə bil ki, kim isə -
Dartıb aparır onu.

...Üz tutaraq uzağa
Çıxıb getsə də hərdən,
Yenə ayrıla bilmir -
Doğma, əziz yerlərdən.

* * *

Bir bax da! Yaz daha yaman dirçəlir;
Nazlanır içində yamyaşıl donun.
Süzdükcə, elə bil, ruhum dincəlir!
Mənsə... gəlişini sevirəm onun.

Hayıf, çiçəkləyən çağı ötüşüb.
İndi budaqlarda hay- küyü gəzir.
...Daha
Hər tərəfə
Kölgəsi düşüb.

... Nə ruhum titrəyir, -
Nə qəlbim əsir!

* * *

Qırov kəfən olub saralmış ota,
Payızın odu da soluxur çəndə.
Vaxt vardı - yoxuydum hələ dünyada;
Vaxt gələr - dünyadan köçərəm mən də.

Yardı qaranlığın bağrını bir səs,
Bu səsə səs verdi bütün yol-yoxuş:
Əgər köçübdürsə dünyadan bir kəs, -
Deməli, o adam dünyada yoxmuş.

* * *

Talaya, bax, ay aman! -
Nə işıqlı taladı;
Yaraşıqlı taladı...
Dörd yanını bürüyüb
Şamların sıx cərgəsi.
Bəzəyi gül- çiçəkdi,
Həmdəmisə -
şam səsi.
Gözəlliyi
ömrümə
Təzə ömür caladı...
Hayıf, hayıf...
Yanımda -
Bircə kəs də yoxdu ki,
Heyrətimi bölüşəm:
- Nə işıqlı taladı!...

* * *

Boğula- boğula soyuq nəfəsi -
Qaralır, gecənin rəngi qaralır.
Deyəsən, qorxudan dizlərin əsir;
Deyəsən, qorxudan üzün saralır.

Ay axmaq, sarsılma, topla gücünü!
Tez ol! Yara-yara zülmət gecəni -
Elə hey irəli, irəli şığı...

...Görmürsən
Uzaqda yanan ulduzu? -
Görmürsən
Zülməti yaran işığı?!

*Tərcümə edəni:* **Qoca Xalid**

